# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 oktyabr tarixli 422 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları"nda və 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 947-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 14 iyul tarixli 566 nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 9 mart tarixli 820 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2265 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 oktyabr tarixli 422 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1739) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.8-ci yarımbəndə “Mərkəzi Bankı” sözlərindən sonra “(bundan sonra - Mərkəzi Bank)” sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənddə “Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Palata)” sözləri “Mərkəzi Bank” sözləri ilə əvəz edilsin;

1.3. 2.3-cü (hər iki halda), 2.9-cu, 2.10-cu, 2.11-ci və 3.18-ci bəndlərdə ismin müvafiq hallarında “Palata” sözü ismin müvafiq hallarında “Mərkəzi Bank” sözləri ilə əvəz edilsin;

1.4. 2.9-cu bənddə “20 (iyirmi)” sözləri “10 (on)” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2056 (Cild I) ilə təsdiq edilmiş “Aqrar Sığorta Fondunun Nizamnaməsi”nin 5.7.9-cu yarımbəndi ləğv edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 20 fevral 2024-cü il

№ 92